**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.147**

**RÜFƏT RAMAZANOV***

# BƏSTƏKAR AQŞİN ƏLİZADƏNİN BEŞ SAYLI SİMFONİYASINA ELMİ-NƏZƏRİ BAXIŞ

*Məqalə bəstəkar Aqşin Əlizadənin simfonik əsərlərinə həsr olunub. Tədqiqat əsərində müəllifin beşinci simfoniyasının elmi və nəzəri təhlili, onun forma-strukturu, melodik quruluşu və orkestr üslubu araşdırılır. Əsərdə bəstəkarın simfonik orkestrdə xalq musiqi alətlərindən istifadə metodu araşdırılır. Simfoniyada xalq musiqisi kontekstində müasir musiqinin yazı tərzi və bəstəkarlıq texnikalarından istifadə araşdırılır. Simfoniyanın melodik quruluşu və zəngin xalq musiqisi nümunələrinin müasir melodiyada ifadəsi də təhlil edilir. Məqalədə musiqi nümunələrindən geniş istifadə olunur.*

***Açar sözlər**: bəstəkar, simfoniya, folklor, təhlil, texnika*

## Giriş

Azərbaycan simfonizmi, özünün ilk nümunələrini professional musiqimizin banisi olan Üzeyir Hacıbəylinin yaradıcılığından başlayaraq, musiqi sənətimizdə tədricən formalaşmaqda olan Avropa janrlarının milli təfəkkürdə olan inkişaf prosesində yaranmışdır. Əlbəttə, Azərbaycan professional musiqi yaradıcılığı, öz əsasını klassik Avropa musiqi ənənəsindən bəhrələnməsinə baxmayaraq, onun inkişaf mərhələləri, əsas etibarilə xalq musiqisinin bilavasitə təsiri ilə formalaşması bariz nümunədir. Qeyd etmək lazımdır ki, Üzeyir Bəyin təşəbbüsü ilə, Azərbaycanda ilk dəfə olaraq, Avropa-klassik musiqi tədrisinin başlanması ilə paralel, xalq musiqisinin də, bu təsirə əsaslanaraq aktiv inkişafı özünü göstərmişdir.

## Əsas təhlil

Üzeyir Hacıbəyliinin Azərbaycan musiqi mədəniyyəti qarşısında böyük və əvəzolunmaz xidmətlərindən biri də, klassik Avropa musiqi tədrisinin təşkili ilə paralel olaraq, xalq musiqisinin notlaşdırılması, toplanması, zəngin folklor nümunələrini araşdıraraq nəşr olunması, bu zəmində tarixi əhəmiyyətə malikdir. Bu baxımdan, klassik musiqi janrlarının mənimsənilməsi, nəticədə onun xalq musiqisinin (milli təfəkkür tərzinin) bilavasitə təsiri ilə yozulmasına yol açmışdır. Bunu əsas tutaraq qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəylinin müəllifi olduğu, xalq çalğı alətləri orkestri üçün *"Fantaziya"* əsərləri, öz dövrünün ilk simfonik nümunələridir. Həmin əsərlərin forma, məzmun və dramaturji quruluşu, keçən əsrin əvvəllərində yaranmış simfonik musiqinin Azərbaycanda ilk nümunələrini təşkil edir. Eyni zamanda, bu əsərlərin quruluşunda xalq musiqisinin olduqca böyük və əvəzolunmaz təsiri, özünü bariz şəkildə göstərir. Üzeyir Bəyin ardıcıllarından olan, bəstəkar Asəf Zeynallının müəllifi olduğu xor və orkestr üçün *"Şikəstə"* əsərini [1. s.86.] nümunə göstərmək olar.

Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan musiqi ənənəsində, simfonik janr yoxdur. Bu, ancaq Avropa professional musiqi ənənəsindən tədris vasitəsilə mənimsənilmişdir. Amma, Azərbaycan musiqisində simfonik janrın yaranması, çox böyük bir proses nəticəsində meydana gəlməsi, özü bir tarixi hadisə kimi milli professional bəstəkar yaradıcılığının böyük uğurudur. Keçmiş Sovet Respublikalarının bəzi ölkələri, bu nəticəyə Azərbaycan səviyyəsində yüksələ bilməmişlər. Azərbaycan bəstəkarlıq məktəbi, cəmi yetmiş il inkişaf ərzində musiqi yaradıcılığında mürəkkəb *"dodekafoniya"* texnikası ilə musiqi əsərlərinin yaranmasına nail olmuşdur.

Azərbaycanda, bəstəkarlıq sahəsində simfonik musiqi janrı, çox geniş müraciət olunan janrlar sırasında özünü təsdiq etmişdir. Demək olar ki, Qara Qarayev,Cövdət Hacıyev və onların tələbələrinin yaradıcılığından başlayaraq, simfonik musiqi janrında böyük bir təkamül prosesi özünü parlaq şəkildə göstərmişdir.

Bu kimi bəstəkarlar sırasında Aqşın Əlizadənin rolu əvəzolunmazdır. A. Əlizadə, öz yaradıcılığında beş simfoniya, simfonik poema və bu janr üzərində bir sıra əsərlərin qələmə alınmasında, milli musiqi tarixinə böyük töhfələr vermişdir.

Bəstəkarın beşinci simfoniyası, bu janrda bəstələnmiş çox maraqlı və eyni zamanda, janrın interpretasiyasında yeni yanaşma tərzinin parlaq nümunəsidir. Nəticədə, bəstəkarın bu əsəri, özünün qeyd etdiyi kimi *"Azərbaycan simfoniyası"*nın meydana gəlməsində böyük rol oynamışdır.

Beşinci simfoniya, forma-struktur nöqteyi-nəzərindən çox orijinal bir əsərdir. "Musiqidə forma-struktur quruluşu, məhz bəstəkarlar tərəfindən yaradılır, başqa sözlə desək, kəşf edilir. Bu xüsusiyyət də, bəstəkarların yaradıcılıq axtarışlarının nəticəsi kimi qəbul edilir. Xüsusilə vurğulamaq lazımdır ki, formasız və ya struktur quruluşu olmadan musiqi yoxdur. Hər bir musiqi nümunəsi, janrından asılı olmayaraq, mütləq bu və ya digər forma quruluşuna tabedir". [2.s.108] Qeyd etmək lazımdır ki, əsərin tematik quruluşunda sitat istifadə olunmuşdur. Bu, Azərbaycan sifahi-professional musiqisinin parlaq nümunəsi olan *"Kəsmə Şikəstə"* ritmik muğamıdır. Bu ritmik muğam, Azərbaycan muğam aləmində çox populyar və eyni zamanda, özünəməxsus üslub və dəsti-xəttinə malik olan məşhur xanəndələr tərəfindən çox maraqlı tərzdə ifa olunmaqdadır.

Xüsusilə qeyd etməliyik ki, bəstəkar bu əsərdə ritmik muğamın intonasiya xüsusiyyətinə özünəməxsus tərzdə yanaşmış, onun melodik əsasını özünün yaradıcı dünyagörüşü tərzində ifadə etməyi bacarmışdır. Müəllifin burada öz individual yaradıcı baxışı, əsərin orijinal tərzdə melodik (intonasiya) quruluşuna dəlalət etmişdir. Bununla bəstəkar, məşhur alman filosofu Artur Şopenhauerin təbirincə desək : - *"Dünyanı insanın vasitəsilə anlatmaq"* [3.s.2] fikrini təsdiq etmək cəhtini görürük. Məhz beşinci simfoniyanın bir çox xarici ölkələrdə ifası, bu ritmik muğamın Azərbaycanın hüdudlarından kənarda səslənməsinə, təbliğinə və xalq musiqimizin gözəlliyini, eləcədə onun fəlsəfi mahiyyətini çox bacarıqla anlatmaq cəhtidir.

İstifadə olunmuş sitat, əsərin kulminasiyasını təşkil edir. Maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, əsərin ilk xanələrində səslənən giriş hissəsi, həmin sitatın melodik mövzusundan törəyən variasiyalı ifadəsidir.

***Nüm.1***




Nümunədə verilmiş musiqi, əsərin giriş hissəsində səslənir. Yuxarıda qeyd etdiyimiz kimi, bu musiqi nümunəsi simfoniyanın əsas (sitat) mövzusunun variantlı ifadəsidir. Bu xüsusiyyət, bəstəkarın düşüncə tərzinə xas olan bir prinsipə əsaslanır.

***Nüm. 2***




Nümunə 2-də verilmiş musiqi, giriş hissəsinin əsas tematik xəttini təşkil edir. Demək olar ki, həmin musiqi nümunəsi ilə bəstəkar simfoniyada əsas mövzu üzərinə keçidi yerinə yetirir. Gördüyümüz kimi, bu keçid olduqca incə və demək olar ki, hissolunmaz şəkildə qurulmuşdur. Ancaq, həmin keçid mövzusu, əsərdə çox maraqlı bir tərzdə səslənir. Müəllif, burada musiqi fikrini olduqca qısa ifadəli olaraq göstərmişdir. Burada sual cümləsi 1-ci *violinlərin* ifasında səslənir. Ancaq onun cavab cümləsi, *faqotların* və *bas klarnetin* paralel ifası ilə səslənir. Ancaq onun kontrastlı xarakteri, ümumi kompozisiya quruluşunda böyük əhəmiyyət daşıyır.

***Nüm. 3***



Mövzu tədricən inkişaf olunaraq, genişlənir. Çox maraqlı bir cəhət ondan ibarətdir ki, genişləndikcə simfoniyanın aparıcı tematik mövzusuna çevrilir. Bu mövzunun inkişafı, orkestrin tutti ifasında, özünün möhtəşəmliyini göstərir. Simfoniyanın ilk xanələrində göstərdiyimiz melodik nümunə, artıq orkestrin tutti ifasında səslənərək, daha möhtəşəm, qəhrəmani bir xarakterdə özünün bir qədər də "iddialı" şəkildə inkişafını təsdiq edir.

***Nüm. 4***




Məlum olduğu kimi, bəstəkar Aqşin Əlizadə, müəllifi olduğu 5 saylı simfoniyasında Böyük simfonik orkestrin tərkibində xalq musiqi alətlərindən geniş şəkildə istifadə etmişdir. Burada *2 zurna, Ney, 2 Balaban (in H),* və nəhayət *2 Saz* (in H) alətlərindən istifadə etmişdir.

**Nəticə**

Qeyd etmək lazımdır ki, müəllif bu xalq çalğı alətlərinin ifasında heç bir sitat musiqidən istifadə etməmişdir. Bu alətlərin ifasında bəstəkarın qələmə aldığı orijinal musiqi nümunəsi, yəni müəllifin bəstələdiyi musiqi səslənir. Burada, əsas və başlıca məqsəd kimi "*xalq musiqi alətlərininin səslənməsindən (ifasından) istifadə olunması ilə, millilik xüsusiyyətini yaradaraq yerinə yetirilən melodik üsul"* [4.s.6] əsas götürülmüşdür.

## ƏDƏBİYYAT

1. Qasımova S.C., Bağırov N.H. Azərbaycan Sovet musiqi ədəbiyyatı. Bakı., Maarif, 1984, s.86, 224 s.
2. Ramazanov R. Musiqinin forma-struktur quruluşunun müasir xüsusiyyətləri. Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri. Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti. 2022, № 2, (12), s. 108, 128 s.
3. Артур Шопенгауэр, Мир как воля и представление. Собрание сочинений, Т 1. М., Московский клуб, 1992, с 9. 395 с.
4. Ramazanov R. Bəstəkar Aqşin Əlizadənin simfonik əsərlərində folklor və müasirliyin yaradıcı paralelizmi. Sənət Akadaemiyası, beynəlxalq elmi-nəzəri jurnal. Bakı., №1 (30) 2025, s.6, 206 s.

***Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının aparıcı elmi işçisi. Bəstəkar, Azərbaycan Bəstəkarlar və Kinematoqrafçılar İttifaqının üzvü.***
***E-mail: rufatcomposer@gmail.com***

**Rufat Ramazanov**

## A SCIENTIFIC AND THEORETICAL APPROACH TO THE FIVE SYMPHONY OF COMPOSER AGSHIN ALIZADE

The article is dedicated to the symphonic works of composer Agshin Alizade. The research work provides a scientific and theoretical analysis of the author's fifth symphony, examining its form-structure, melodic structure and orchestral style. The work explores the composer's method of using folk musical instruments in a symphony orchestra. The symphony examines the writing style and use of compositional techniques of contemporary music in the context of folk music. The

melodic structure of the symphony and the expression of rich examples of folk music in a modern key are also analyzed. The article makes extensive use of musical examples.

**Keywords:** *composer, symphony, folklore, analysis, technique.*

**Руфат Рамазанов**

**НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К ПЯТИ СИМФОНИИ КОМПОЗИТОРА АГШИНА АЛИЗАДЕ**

Статья посвящена симфоническому творчеству композитора Агшина Ализаде. В исследовательской работе научно-теоретически проанализирована пятая симфония автора, рассмотрены ее форма-структура, мелодический строй и оркестровый стиль. В произведении исследуется метод использования композитором народных музыкальных инструментов в симфоническом оркестре. В симфонии рассматривается стиль письма и использование композиционных приемов современной музыки в контексте народной музыки. Анализирована также мелодическая структура симфонии и выражение богатых образцов народной музыки в современном ключе. В статье широко используются нотные примеры.

**Ключевые слова:** *композитор, симфония, фольклор, анализ, техника.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**